# Qəbələdə sosial-iqtisadi inkişafın yeni üfüqləri

## 2016-cı ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

> *Gözəlliklər diyarı Qəbələdə ekoturizmin inkişafı üçün geniş imkanlar var.*
>
> **İlham Əliyev.**

(Əvvəli 4-cü səhifədə).

Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2016-cı il tarixli 976 saylı Fərmanına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin strukturu ləğv edilərək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna birləşdirilməsi nəticəsində şöbənin strukturu yenidən formalaşdırılmış və əvvəllər rayon əhalinin sosial müdafiəsi mərkəzinə aid funksiyalar müvafiq olaraq Fondun Qəbələ Rayon Şöbəsinə verilmişdir.

Hazırda şöbədə 4.633 hərəkətdə olan sosial müavinət və təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 304,6 min manat təşkil edir. İl ərzində 162 nəfər 18 yaşadək əlil uşağa, 287 nəfər I, II və III qrup əlilə, 52 ailənin 106 uşağına ailə başçısını itirməyə, 76 nəfərə qocalığa görə müavinət təyinatı aparılmışdır. Bundan başqa 1259 ailənin 1359 uşağına doğulmasına görə, 29 nəfərə dəfn üçün birdəfəlik müavinət ödənmişdir. 318 ailəyə ünvanlı sosial yardım təyin edilmişdir. Hazırda şöbədə 988 hərəkətdə olan ünvanlı sosial yardım işi vardır.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təmin olunması üçün suvarma kanalları 564 min kubmetr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə çay məcrası 1.070 min kubmetr daş və qumdan təmizlənmiş, 320 kubmetr qabion bəndi quraşdırılmış, 3.003 kubmetr daş beton bənd cari və əsaslı təmir edilmişdir. Suvarma sistemləri idarəsi tərəfindən 16.805 manat su pulu yığılaraq illik plana 100 % əməl olunmuşdur.



*Azərişıq Şimal-qərb Regional Elektrik Təhcizatı və Satışı İdarəsinin yeni binası.*

**Hörmətli toplantı iştirakçıları!**

Hər il olduğu kimi ötən ildə rayonda tikinti-quraşdırma və abadlıq işləri uğurla həyata keçirilmişdir. Belə ki, 2016-cı il ərzində rayonda YAP Qəbələ Rayon Təşkilatının inzibati binası, Xizəkçilik Mərkəzi və “Tufandağ” Oteli, Qəbələ Park-Bulvar Kompleksi, Dəmiraparan çayı üzərində 324 p/metrlik 10 aşırımlı dəmir-beton körpü, Qəmərvan çayı üzərində 36 p/metrlik 1 aşırımlı dəmir-beton körpü, Nohurqışlaq-Tüntül-Yengicə avtomobil yolunun tikintisi, “Asan xidmət”in inzibati binası, 100 yerlik uşaq bağçası, Nohur gölü ərazisində Shenot Palace Health Wellnes Hotel Sanatoraiya Kompleksi, “Tufandağ” kanat yolunun “Yatmış gözəl” məntəqəsində restoran binası obyektlərində tikinti-quraşdırma işləri başa çatdırılmış və həmin obyektlər istismara verilmişdir. Bununla yanaşı Qəbələ Rayon Məhkəməsinin inzibati binası və Qəbələ Rayon Kənd Təsərrüfatı idarəsinin inzibati-laboratoriya binası obyektlərində tikinti işləri başa çatdırılmış, Soltannuxa kənd uşaq bağçası əsaslı təmir edilmişdir.



*Park-bulvar kompleksi.*

Ötən il ərzində şəhərin Muxtar Abduyev küçəsindəki 11 ədəd beşmərtəbəli yaşayış binalarında cari təmir işləri, Heydər Əliyev prospektindəki beşmərtəbəli binaların həyətində, 28 May və Vahid Qəhrəmanov küçələrində, eləcə də şəhər 5 nömrəli tam orta məktəbin arxa hissəsindəki küçədə əsaslı təmir işləri görülmüşdür.

Tikintisi yarımçıq qalmış Qafqaz Aqua Land Hotel, Qafqaz Diamond Aquapark, Qolf Kompleksi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin inzibati binası, Qəbələ Rayon Prokurorluğunun inzibati binası, Gömrük Akademiyasının inzibati binası, Qəbələ Peşə Məktəbi, Atçılıq mərkəzi obyektlərində və Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidənqurulması sahəsində inşaat işləri davam etdirilir. Hazırda Qəbələ şəhərində yeni xalça toxuculuğu müəssisəsinin tikintisinə və Muxtar Abduyev küçəsində 5 ədəd 5 mərtəbəli binaların dam örtüklərinin dəyişdirilməsi işlərinə başlanılmışdır.

**Hörmətli tədbir iştirakçıları!**

Rayonumuzda hazırda 23 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Maddi-texniki bazasının yaxşılaşdırılması məqsədi ilə 2016-cı ildə həmin uşaq bağçalarına 12.000 manatlıq yumşaq, 12.000 manatlıq bərk inventar, 29.700 manatlıq digər avadanlıqlar alınmışdır.

2016-cı ili rayonumuzun təhsil işçiləri də yüksək nəticələrlə başa vurmuşdur.

Belə ki, biliyi qiymətləndirilən 15762 nəfər şagirdin 3995 nəfəri əla, 6042 nəfəri isə əla və yaxşı qiymətlərlə oxumuşdur.

Məktəblərdə 1377 nəfərə ümumorta təhsil kursu üzrə şəhadətnamə, o cümlədən 14 nəfər fərqlənmə şəhadətnaməsi, 1419 nəfərə isə tam orta təhsil kursu üzrə attestat verilmişdir. Onlardan 3 nəfər qızıl medala layiq görülmüşdür. İlin müvəffəqiyyət faizi 99,7, keyfiyyət göstəricisi isə 63,8 faiz olmuşdur.

Orta təhsil kursunu bitirən 1419 şagirddən 760 nəfər ali məktəbə qəbul olunmaq üçün sənəd vermiş, onlardan 424 nəfər ali məktəblərə qəbul edilmişdir. Ali məktəbə qəbul olunanların 36 nəfəri 600-dən yuxarı bal toplamışdır.

Qəbulun nəticələrinə görə şəhər 1, 2, 3, 4, 5 nömrəli, Vəndam qəsəbə 1 nömrəli, Nohurqışlaq, Bunud, Hacıalılı, Soltannuxa, Dizaxlı və Mıxlıqovaq kənd tam orta məktəbləri fərqlənmişlər.

(Ardı 6-cı səhifədə).